# Azərbaycan avtomobil ixracına hazırlaşır



Hazırda Azərbaycanda 5 növ avtomobil istehsal olunur və bu yalnız daxili bazar üçün nəzərdə tutulub.

"Azərmaş" Açıq Səhmdar Cəmiyyətinin verdiyi məlumata görə yaxın 5 il ərzində və daha qısa müddətdə Azərbaycan istehsalı olan avtomobillərin xaricə ixracı da nəzərdə tutulur.

Azərbaycan istehsalı olan avtomobillərin Rusiyaya ixracı istiqamətində müvafiq işlər aparılır. Həmçinin, Rusiyadan əlavə ölkəmizin istehsalı olan avtomobillərin Ukrayna, Gürcüstan, Orta Asiya ölkələrinə (Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Tacikistan) ixracı da nəzərdə tutulur.

2020-ci ilin yanvar-avqust aylarında ölkədə 1170 minik avtomobili istehsal edilib. 2019-cu ilə nisbətən 2020-ci ildə ölkəmizdə avtomobil istehsalı 21,7 faiz azalmışdır.

# Stansiyaların sayı artacaq



Bakıda dəmiryol stansiyalarının sayı 26-dan 55-ə çatdırılacaq. 2040-cı ilədək Abşeron yarımadası üzrə dəmiryol şəbəkəsinin ümumi uzunluğu 198 kilometrdən 280 kilometrə, stansiyaların sayı isə 26-dan 55-ə çatdırılacaq.

2027-ci ilin sonunadək Abşeron yarımadasında 20 sərnişin stansiyasının yenidən qurulması, aktivləşdirilməsi və inkişafı nəzərdə tutulur. Həmçinin Biləcəri stansiyası ilə Bakı Dəmir Yolu Vağzalı arasında "Şimal-Cənub" istiqamətindəki dəhliz boyu dörd yeni stansiyanın tikintisi də nəzərdə tutulur.

2040-cı ilədək metro xətləri şəbəkəsinin ümumi uzunluğu 36,7 kilometrdən 76,2 kilometrə, stansiyaların sayının isə 25 -dən 51-ə çatdırılması nəzərdə tutulur.

# *Qarabağa gedəcəyəm*

***"Qarabağda talan var,***
***Gözü yolda qalan var."***

Sanmayın ki, qocalmışam,
Ahıllaşıb keçib yaşım.
Hələ silah tutur əlim,
Əyilməyib hələ belim.
Gedəcəyəm deyir dilim.
Murdarlığı atmaq üçün,
Ulu haqqa çatmaq üçün
Qarabağa gedəcəyəm!

Dilim topdu, gözüm süngü,
Qollarımı gen açaraq,
Dırnağımla mən düşməni
əzəcəyəm.
Qarabağım vətənimdir,
Qarabağa gedəcəyəm!
İndi başım ərşə dəyir,
Haqq ədalət əlimdədir.

Körpə, qoca, vətən deyir
Qarabağa gedəcəyəm!
Millətimin əsgəriyəm,
Sürünərəm dizin-dizin.
Daşlarında qalar izim.
Qulağımda Himnin səsi,
Ürəyimdə yurd həvəsi,

Köynəyimi bayraq edib
Al qanımla yazacağam.
Qarabağ Azərbaycandır!
Bu kəlamı bayraq kimi,
Başım üstə qaldıraraq,
Ürəyimi sovqat edib
Mən Şuşaya, Xankəndinə,
Qarabağa gedəcəyəm!

Eşidirəm:-Komandanım!
Haqq səsini mən hər zaman,
Əmr sənin, iş mənimdir,
Qarabağın hər bucağı
Mənim ana vətənimdir.

**Sədiyar SƏFƏRƏLİYEV,**
**Qəbələ şəhəri.**

# Gözəl kəlamlar

Səbəbləri yox etmədən, nəticələri yox edə bilmərik.

* * *

Günahkarı əfv edən hakim, özünü məhkum etmişdir.

* * *

Zülümlə zülümsüz mübarizə edəcəksən.

* * *

Zaman bir qılıncdır, sən onu istifadə etməsən o səni kəsər.

* * *

Oxumağı sevmək, həyatdakı cansıxıcı saatları ən gözəl saatlara dəyişdirməkdir.

* * *

Dərdin pisi, yaxşının pisə möhtac olmasıdır.

* * *

Günahsız olan qorxusuz yaşayar.

# Güclü enerji şəbəkəsi üçün



Günəş və külək elektrik stansiyaları üçün əlverişli şəraitə malik altı geniş ərazi müəyyənləşib. Bakı şəhərinin baş planı üzrə "Mühəndis-Kommunikasiya infrastrukturu" bölməsinin verdiyi məlumatda bildirilir ki, qeyd edilən ərazilər ümumilikdə 3717 hektar sahəni əhatə edəcək. Elektrik enerjisi şəbəkəsinin etibarlılığının və gücünün artırılması məqsədilə Bakının mərkəzi hissəsinin ətrafında 220 kv-luq qapalı dairəvi sistemin qurulması nəzərdə tutulur.

# Sağlamlıq guşəsi

## Günəbaxan tumu xərçəngdən qoruyur

Amerikanın İllinoys Universitetinin alimlərinin araşdırmalarına görə günəbaxan tumu süd vəzi, yumurtalıq, bağırsaq, dəri və ağ ciyərdə bədxassəli şişlərin inkişafına mane ola bilir. Tumlardakı folik turşusu, yağ turşusu və vitamin B-6 dəridəki sızanaqları da aradan götürür. Günəbaxan tumunun bioloji dəyəri ət və yumurtadan yüksəkdir. Bu tumda çoxlu miqdarda aminturşuları maddələr mübadiləsini tənzimləyir, xalestirinin səviyyəsini normada saxlamağa yardım edir. Günəbaxan tumunda ürəyin və beynin normal işləməsi üçün vacib olan fosfor, maqnezium və kalium var. E vitamini güclü antioksidantdır, xərçəng əleyhinə fəaliyyət göstərir, orqanizmi aterosklerozdan və müxtəlif cür şualardan qoruyur. E vitamininə olan gündəlik tələbatı ödəmək üçün 50 qr günəbaxan tumu yemək kifayətdir. Günəbaxan tumuna olan D vitamini isə sümüklərin inkişafı və möhkəmlənməsinə xidmət etdiyinə görə uşaqlar və yeniyetmələr üçün əvəzolunmazdır.

A vitamini gözləri, saç və dırnaqları qoruyur və gözəlləşdirir.




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

**2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**

**«QƏBƏLƏ» qəzetinin reklam xidməti**

**205-19-14, 205-15-56**





Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1500*